

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 150 (21.560)

13 avqust 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Çinin ölkəmizdəki səfiri Naxçıvan Muxtar Respublikasının istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub

***Avqustun 11-də Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. İkigünlük səfər çərçivəsində səfir muxtar respublikanın istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri, gəzməli-görməli yerləri ilə tanış olub.***





Çinli diplomat, ilk olaraq, ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Sonra Duzdağ Fizioterapiya Mərkəzinə gələn səfirə bu müalicə ocağının fəaliyyəti haqqında məlumat verilib.

Naxçıvan Dövlət və "Naxçıvan" universitetləri ilə tanışlıq zamanı hər iki ali təhsil müəssisəsinin strukturu, elektron təhsil şəbəkəsi və müasir texnologiyalardan istifadə, tədris olunan ixtisaslar barədə ətraflı məlumat verilib. "Naxçıvan" Universitetində qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan Çin Xalq Respublikasının "Huawei" şirkəti ilə uzun illərdir, uğurlu əməkdaşlıq edir. Bu əməkdaşlığın davamı olaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən "Naxçıvan" Universitetində həyata keçirilən "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə çərçivəsində Naxçıvandan olan 6 tələbə Çinin "Huawei" şirkətində 2016-cı il iyun ayının 10-27 tarixləri arasında təcrübə keçib. İnformasiya-kommunikasiya texnologiyalarının daha təkmil öyrənilməsi məqsədini daşıyan təcrübə kursu şirkətin ayrı-ayrı peşəkar mütəxəssisləri tərəfindən aparılıb və tələbələrə sertifikatlar təqdim olunub.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Distant Tədris Mərkəzində isə qonağa məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq, Distant Tədris Mərkəzi yaradılıb və mərkəz 2014-cü il oktyabrın 1-də istifadəyə verilib. Burada audio və elektron kitabxana, həmçinin brayl əlifbası ilə çap olunmuş dərslik, ədəbiyyat və jurnallar mövcuddur. Mərkəzin istifadəyə verilməsi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üçün əsaslı zəmin yaradıb.

Avqustun 12-də Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan Naxçıvan Biznes Mərkəzində olub, burada yerli məhsulların nümayiş etdirildiyi sərgiyə baxıb. Məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya məkanı kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir. Mərkəzin əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodoloji dəstək göstərilməsidir.

Diqqətə çatdırılıb ki, hazırda burada muxtar respublikada 100-ə yaxın istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Sərgidə Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər xeyli çeşiddə müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Dizayn Holdinq", "Cahan Holdinq" Şirkətlər ittifaqları, "Zümrüd" Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Çinli diplomat sonra "Naxçıvan Avtomobil Zavodu", "Gəmiqaya Sement Zavodu", "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin və Naxçıvan Sənaye Kompleksinin istehsalat sahələri ilə tanış olub.

Həmin gün qonaq Batabat yaylağında olub, Naxçıvan şəhərində yerləşən Naxçıvan Dövlət Xalça Muzeyini və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət edib. Naxçıvanın təbiəti və qədim tarixi abidələri səfirdə xoş təəssürat yaradıb.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuanın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

✍ Səbuhi HƏSƏNOV

***Avqustun 12-də Kəngərli Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.***

## Kəngərli rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə edilib



Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbiri açaraq son illər Kəngərlidə sığorta fəaliyyəti sahəsində görülmüş işlər haqqında danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, sığorta cəmiyyətin mühüm tələbatlarından biridir. Müasir dövrdə muxtar respublikamızın sosial-iqtisadi həyatında sığorta fəaliyyəti genişlənməkdədir. Muxtar respublikamızda sosial-iqtisadi inkişafın mühüm tələbatı kimi sığorta münasibətlərinin də genişləndirilməsi və sığortanın bir çox növlərinin tətbiq edilməsi tələb olunur. Vurğulanıb ki, sığorta müxtəlif gözlənilməz hadisələr zamanı insan sağlamlığına, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə təminat verərək cəmiyyətin inkişafı üçün zəmin yaradır. Bu baxımdan ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən, vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələrinin və mülki məsuliyyətin icbari qaydada sığortalanması müasir dövrün tələblərindəndir. Vaxtında sığortalanmaqla sığorta hadisələri baş verdikdə vətəndaşlar onlara dəymiş zərərlərə görə sığorta ödənişləri almaq hüququna malikdirlər. Çıxışda bu barədə konkret misallar gətirilərək vaxtında sığortalanmağın zəruriliyi diqqətə çatdırılıb.

Hər bir sığorta növü üzrə Kəngərlidə görülmüş işlər təhlil edilərək bildirilib ki, ötən müddətdə rayonda bu istiqamətdə xeyli iş görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Bununla yanaşı, rayonda daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası, kənd təsərrüfatı sığortası və digər sığorta növləri üzrə görüləsi işlər çoxdur. Belə ki, rayonda hələ də daşınmaz əmlakını sığorta etdirməyən vətəndaşlar və sahibkarlar, eləcə də yol hərəkətində iştirak edən avtonəqliyyat vasitəsi sahibləri tərəfindən mülki məsuliyyətini sığorta etdirməyən fiziki şəxslər vardır. Diqqətə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin edilməlidir.

Könüllü sığorta növlərindən biri olan kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunan baş direktor bildirib ki, 2016-cı il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaztarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib. Bununla əlaqədar vurğulanıb ki, bu sahədə də Kəngərlinin fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan maarifləndirmə və təşkilati işlər genişləndirilməlidir.

Tədbirdə Kəngərli Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Anar Həsənov, Kəngərli Rayon Polis Şöbəsinin baş dövlət avtomobil müfəttişi Ədalət Şükürov, Xok kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mübariz Əliyev görülmüş işlər barədə məlumat veriblər.

Tədbirə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov yekun vurub.

## "Dövlət orqanlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydaları" mövzusunda seminar keçirilib

***Avqustun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 53 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət orqanlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydaları" mövzusunda seminar keçirilib.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli Fərmanı ilə "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" təsdiq edilib.

Qeyd olunub ki, sözügedən normativ-hüquqi akt kargüzarlığın aparılması ilə bağlı bir sıra yeni əsaslar müəyyənləşdirib. Belə ki, vətəndaşlar tərəfindən daxil olan təklif, ərizə və şikayətlərə baxılması qaydaları daha dəqiqliklə işlənilib, müraciətlərin daxil olma üsuluna, əvvəlki müraciətlərlə əlaqəsinə və digər əlamətlərə görə qəbulu, qeydiyyatı və cavablandırılması fərqləndirilib. Baxılmayan müraciətlərin dairəsi, qaydaların şamil olunmadığı sahələr dəqiqliklə sadalanıb, ilk dəfə olaraq elektron, kollektiv və canlı yayım zamanı daxil olan müraciətlərin qeydiyyatı qaydaları müəyyən edilib.

Bildirilib ki, əsas yeniliklərdən biri də vətəndaşların qəbulu qaydasının ayrıca fəsildə öz əksini tapmasıdır. Vətəndaşların qəbulunun aparılması, bu zaman daxil olan yazılı və şifahi müraciətlərin cavablandırılması tam aydınlıqla işlənilib.

Yeni qaydalara əsasən, kargüzarlıq xidməti aylıq, rüblük və illik arayışlar hazırlayaraq təşkilatın rəhbərinə, ilin yekunlarına dair hesabatları isə yuxarı orqana təqdim etməlidir.

Sonra komissiyanın Mühasibat və ümumi işlər sektorunun müdiri Türkan Gülməmmədli hazırlanmış slaydlar vasitəsilə vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması, vətəndaşların qəbulunun təşkil edilməsi, müraciətlərlə bağlı sənədlərin qovluqlaşdırılması və saxlanılması qaydaları barədə məlumat verib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**



# Sədərəyin yeni növrağı

## Hər açılan sabah qazanılan uğurlardan soraq verir

*Dəfələrlə bu yolu qət etmişəm. Fərqli düşüncələr, dünəni xatırlamalar, bir-birini əvəz edən mənzərələrin yaratdığı təəssüratlar mənzil başına nə vaxt çatdığımızı belə, unutdurub. Yenə Şərur rayonunu ötüb üzü Sədərəyə, sərhəd bölgəmizə tərəf uzanan geniş asfalt yolla Heydərabad qəsəbəsinə gedirəm. Bu yolun hər döngəsinə, hər qarışına bələdəm. Bir vaxtlar burada gedən amansız döyüşləri yaxşı xatırlayıram. Aradan çox illər keçib. Ancaq müharibənin yaddaşlarda dərin izləri qalıb.*

1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərək bölgəsinə hücum ediblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Təkcə 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Qədim yurd yerinin müdafiəsi vətənpərvər oğulların üzərinə düşüb. Muxtar respublikanın rayonlarından gələn igid eloğullarımız burada böyük qəhrəmanlıqlar göstəriblər. Həmin illərdə muxtar respublikamızın bütün bölgələrindən, həmçinin ölkəmizin 12 rayonundan Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 nəfər eloğlumuz şəhidlik zirvəsinə ucalıb ki, onlardan 52-si sədərəklidir. Qanlı döyüşlərdə qəhrəmanlıq göstərən polis kapitanı Məhərrəm Seyidov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bəli, bunlar ən yaxın keçmişimizin müharibə xronikasıdır.

İndi atəşkəs dövrü olsa da, arabir eşidilən güllə səsləri adamların qurub-yaratmaq əzmini, doğma yurdun hər qarışını gülüstana çevirmək həvəsini qətiyyən zəiflətmir. Əksinə, hər kəsin qəlbindəki vətənpərvərlik hissini alovlandırır, sakinləri Sədərəyi daha əzmkarlıqla tikib-qurmağa ruhlandırır.

Bu bölgədə diqqətçəkən əsas cəhət də adamlardakı yüksək əhval-ruhiyyə, torpağa qəlbən bağlılıq, sabaha cavabdehlik hissləridir. Rayon sakinləri böyük qələbənin tezliklə gerçəkləşəcəyinə inanırlar. İnanırlar ki, onların firavan həyatı, yaxşı dolanışığı üçün qayğı və diqqətini əsirgəməyən, Qarabağ problemini özünün çoxsahəli fəaliyyətində həmişə prioritet məsələ hesab edən ölkə Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti və yenilməz iradəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır.

### Heydərabad qəsəbəsi şəhər timsalındadır

Son vaxtlar Heydərabad qəsəbəsinə yolu düşənlər sevinc və təəccüb hisslərini gizlədə bilmirlər. Özü də bu sevinc və təəccübə səbəb təkcə onların gözünü-könlünü oxşayan yenilik, abadlıq və gözəllik deyil. Bizcə, burada başqa bir səbəb də var: aparılan tikinti-quruculuq işlərindəki yüksək zövq və müasirlik. Qəsəbə öz simasını tamamilə dəyişib: yeni binalar tikilib, yollar, səkilər salınıb, park və bağlar yaradılıb. Bu gün Heydərabad qəsəbəsində elə bir ictimai və yaşayış binası tapmaq olmaz ki, əsaslı şəkildə təmir və ya bərpa edilməsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamından ötən 16 il ərzində sərhəd bölgəsində görülən işlər öz vüsəti ilə diqqəti çəkir. Ümummilli liderimizin adını daşıyan Heydərabad qəsəbəsinin abadlaşdırılaraq müasir rayon mərkəzinə çevrilməsi rayonun simasını xeyli dəyişib, ona yaraşıqlı görkəm verib.

Yenidən qurulan Heydərabadda görülən işləri ölkə başçısı yüksək qiymətləndirib: ***"... Gözəl evlər, binalar tikilib. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublikanın rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir".***

Son illər dövlətin davamlı qayğısından güc alan, doğma yurdu canından artıq sevən insanların fədakarlığı qəsəbəni şəhərə çevirib desək, qətiyyən yanılmarıq. Şəhərlərə xas olan xüsusiyyətlər indi Heydərabadda var.

Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov deyir ki, cari ilin ilk 6 ayı da Sədərək üçün uğurla başa çatıb. Bu dövrdə sərhəd bölgəsində 63 min manatlıq abadlıq və təmir işləri aparılıb. Hazırda Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binasının tikintisi davam etdirilir. Quruculuq tədbirləri rayon həyatının müxtəlif sahələrini əhatə edir. Suvarma suyuna olan tələbatın ödənilməsi məqsədilə rayonda 52 subartezian quyusu təmir olunub, 6 subartezian quyusuna yeni nasos salınıb. Bir subartezian quyusunda bərpa işləri aparılıb, bir yeni subartezian quyusu qazılıb. Respublika əhəmiyyətli 18, yerli əhəmiyyətli 14 kilometrlik yolda təmir işləri aparılıb. Bu dövrdə müxtəlif gücə malik olan 3 transformator və müxtəlifölçülü elektrik verilişi xətləri dəyişdirilib. 51 ədəd yeni elektrik dirəyi quraşdırılıb. 7 mənzilə qaz xətti çəkilib.

### Sədərək kəndlisi ulu Dədə Qorqudun nəsihətinə əməl edir

Heydərabad qəsəbəsindən Sədərək kəndinə gedirik. Ağrı dağının zirvəsindən süzülüb gələn dağ havası yayın oğlan çağında ciyərlərimizə qəribə sərinlik gətirir.

Ətrafdakı yamyaşıl tarlalar, bardan budağını əyən ağaclar sanki ötüb-keçənlərə bərəkət nəğməsi oxuyur. Yolkənarı tikililərin müasir dizaynı, yaraşıqlı görünüşü adama sərhəd bölgəsində, düşmənin bir addımlığında olduğunu unutdurur.

Bu əhvalla Sədərək kəndinin mərkəzindəki qocaman çinar ağacının altında dayanırıq. Ağacın iriyarpaqlı budaqları nəhəng bir yelpik kimi ətrafa sərinlik bəxş edir. Qarşı tərəfdən çıxıb bizə yaxınlaşan Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımovla hal-əhval tuturuq. Yolboyu yaranan təəssüratımızı bölüşürük. Arif Qasımov bildirir ki, Sədərəyin bol suyu əkinləri, bağ-bağatları təzə-tər, yaşıl saxlayıb. Bu il məhsul daha boldur. Adamlar da, sağ olsunlar, gecə-gündüz əkin-biçinin üstündədirlər.

Bu vaxt Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Bəxtiyar Mahmudov və İcra Hakimiyyətinin məsul işçiləri də maşından düşüb qoca çinarın kölgəsinə gəlirlər. Bəxtiyar Mahmudov:

– Qaraağac kəndindən gəlirik. Həmişə camaatın içərisində oluruq. Bu görüşlər isə məxsusi hesabat xarakteri daşıyır. İrili-xırdalı problemləri öyrənib yerindəcə həll etməyə çalışırıq.

Sədərəyin barıt qoxan qanlı-qadalı o günlərini xatırlayanda, bu gün gözqamaşdıran gözəlliyi ilə üzəgülən növrağına baxanda istər-istəməz ulu ozan Dədə Qorqudun məşhur bir deyimi yada düşür: "Torpağı qorumasan, əkib-becərməyə, əkib-becərməsən, qorumağa dəyməz..."

Əzəli və əbədi yurd yerlərini böyük qurbanlar bahasına Ermənistan silahlı qüvvələrinin caynağından xilas edən sədərəklilər bu torpağın hər qarışının qədrini bilir, kimsəyə əl açmamaq, muxtar respublikanın ərzaq təhlükəsizliyinin təminatına sanballı töhfələr vermək üçün əzmlə çalışır, bol məhsul istehsal edirlər. Müharibə şəraitində yaşayan bir ölkədə çörək elə silah qədər əhəmiyyətlidir. Bu həyat həqiqətini dərk edən rayonun torpaq mülkiyyətçiləri bu il 1947 hektar sahədən 6301 ton taxıl istehsal ediblər. Muxtar respublika üzrə taxılçılıqda ən yüksək məhsuldarlığa sərhəd bölgəsində nail olunub: 32,4 sentner. "Sarı kəhrəba" ustaları taxıl istehsalını yaxın illərdə 10 min tona çatdırmağı qarşılarına məqsəd qoyublar. Bölgənin torpaq mülkiyyətçiləri kartof, bostan-tərəvəz, meyvə, ət, süd, yun, yumurta istehsalında da böyük uğurlar qazanırlar. Cari ilin ilk 6 ayında torpaq mülkiyyətçiləri 1437 hektar sahədə müxtəlif kənd təsərrüfatı məhsulları yetişdiriblər. Payızlıq və yazlıq əkinlərinin aparılmasına görə 482 torpaq mülkiyyətçisinə 132 min 380 manat yardım edilib, onlara güzəştli şərtlərlə 283 ton gübrə verilib. Çəkilən zəhmət hədər getməyib, sahələrdə bol məhsul yetişdirilib. Yetişdirilən məhsulun satışındakı problemlər də aradan qaldırılıb.

Bu gün Sədərək kəndlisi ulu Dədə Qorqudun yuxarıda xatırladdığımız, bütün zamanlar üçün aktual olan müdrik kəlamının dəyərini öz hünəriylə təsdiq edir. Hər kəsin görə biləcəyi reallıqdır ki, bu qədim yurd yeri göz bəbəyi kimi qorunur, qayğı ilə əkilib-becərilir, onun hər qarışı böyük zəhmət, alın təri bahasına cənnətə döndərilir.

İnsanların sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu ilin ilk 6 ayı ərzində rayon üzrə 41 nəfərə yeni pensiya təyinatı aparılıb. İki nəfərə avtomatlaşdırılmış qaydada yaşa görə əmək pensiyası təyin olunub. Bu dövr ərzində Sədərək Rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış 45 nəfər işaxtaran sədərəklinin hamısı daimi işlə təmin olunub. Bütün bunlar sədərəklilərin qurub-yaratmaq əzminə öz müsbət təsirini göstərib. Bu gün sərhəd bölgəsinin sakinləri məhz belə yüksək əhval-ruhiyyədədirlər. Bunu Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Sədərək rayon təşkilatının sədri Teymur Quliyevlə söhbətdən də duyduq:

– Əvvəlcə, onu deyim ki, ulu öndər Heydər Əliyev dühası Sədərək rayonunu ermənilərin işğalından hifz etdi. Siz də yaxşı bilirsiniz ki, bu bölgədə, bu torpaqda nələr yaşanıb. Bütün bunlar öz yerində. İndi biz qurub-yaradır, əkib-becərməklə məşğul oluruq. Sərhədlərimizi göz bəbəyi kimi qoruyan əsgərlərimizə, Silahlı Qüvvələrimizə güvənirik. Bu gün hər bir sədərəkli əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında üzərinə düşən məsuliyyətli missiyanın öhdəsindən layiqincə gəlməyə, torpaqlarımızı düşmən işğalından azad etməyə tam qadirdir.

***

Bəli, sərhəddə düşmənlə üzbəüz dayanan, gündən-günə gözəlləşən Sədərək rayonu öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Sədərəklilər bu yüksəliş və inkişafı, ilk növbədə, ölkə Prezidentinin və Ali Məclis Sədrinin gündəlik diqqət və qayğısının nəticəsi kimi dəyərləndirir, bu yüksək himayədarlığa bundan sonra da əməli işləri ilə cavab verəcəklərini söyləyirlər.

*Bu gün sərhəd bölgəsi olan Sədərək xaosda boğulan, gün keçdikcə bir az da iqtisadi böhranın uçurumlarına yuvarlanan düşmənin gözü qarşısında sabaha inamla addımlayır. Dünən güllələr açılan yerdə bu gün güllər açır. Hər açılan sabah isə beş addımlıqda olan düşmənə gözdağına çevrilən Sədərəyin yeni uğurlarından soraq verir.*

✍ **Muxtar MƏMMƏDOV**

# Halallıq

## Yaxud hər bir məhsul öz qiymətinə satılanda sərfəli olar

***Adətən, kəndli ot biçini başa çatandan, qış üçün yem ehtiyatı yaradandan sonra, necə deyərlər, rahat nəfəs alır. Payızın sonunadək həyət-bacada tikinti işləri aparır, səliqə-sahman yaradır. Elə mən də şənbə-bazar günləri kəndə gedtiyim zaman bu yazılmamış qanuna riayət edir, kəm-kəsir qalan tikinti işlərini yekunlaşdırmağa çalışıram. Bazar günü idi. Tağı usta və köməkçiləri ilə birlikdə həyətdə işləyirdik. Bir yük maşını dayandı. Ortayaşlı bir kişi: – Yorulmayasınız, Allah qüvvət versin, bilmirsiniz, kimdə bəsləmə cöngə olar? – deyib Tağı ustanın üzünə baxdı.***

– İndi bəsləmə cöngə tapmaq çətin olar. Mal-qara yaylaqdadır. Payızda qayıdacaq. Ətlik mallar da elə o vaxt satılacaq. Ancaq kənddə Nizamidə bir bəsləmə cöngə var. Oğlunun toyu üçün saxlamışdı. Eşitdiyimə görə toy gələn ilə qaldığından cöngəni satmaq istəyir, – deyib yolu nişan verdi.

Axşamtərəfi Nizaminin cöngəsini maşında aparan qəssabları görən Tağı usta işarə edib maşını saxlatdı. Elə Nizami də onlarla birlikdə idi.

– Razılaşa bildinizmi? – deyə soruşdum.

–Xeyr. Aparıb qəssabxanada kəsib satacaq, onlara da qəssab haqqı verəcəyəm.

– Bəs kənddə niyə kəsib satmırsan? Xidmət mərkəzində yüksək şəraiti olan ət mağazası da yaradılıb.

– Onu duz deyirsiniz. Ancaq məsələ burasındadır ki, süni mayalanmadan doğulmuş bu cöngənin, təqribən, 350-400 kiloqram əti var. Bu əti də bizim kənddə heç bir aya satıb qurtarmaq olmaz. Zay olar. Ona görə də razılaşdıq ki, şəhərdə sataq.

– Bəs niyə burada kəsib aparmırsınız?

– Ona qəssablar razı olmadı. Həm də cöngə elə qəssabxanada kəsiləndə alıcı da inamlı olur.

– Elədir. Bəs nə vaxt kəsiləcək?

– Allah qoysa, sabah, – deyib yola düşdülər.

Mən də axşamtərəfi işlərimi yekunlaşdırıb döndüm şəhərə. Bazar ertəsi səhər-səhər qəssabxanaya gedib cöngənin ətindən almaq istədim. Bolluq idi. Qoyun əti, quzu əti, inək əti, cöngə əti, – deyə müştəri səsləyən qəssablar satışa çıxarılan əti tərifləyir, müştəri cəlb etməyə çalışırdılar. Bir tərəfdə dayanıb Nizaminin bəsləmə cöngəsinin ətindən almaq üçün növbə gözləməli oldum. Məndən öndə dayanan müştəri ətin üstünə yazılmış 9 rəqəmini görərgörməz hövsələdən çıxdı. Havanın istisindən, bir də piylənmənin təsirindən tər tökən, əl dəsmalı ilə alnını qurulayan müştəri:

– 9 manata ət olar? – deyib qəssaba narazılığını bildirdi.

– Mən əti satanam. Ətin sahibi odur, – deyib Nizamini göstərdi. Nizami müştəriyə yaxınlaşıb soruşdu:

– Nədən narazılıq edirsiniz?

– Ətin qiymətindən. Ət 8 manatdır. Siz niyə 9 manata satırsınız?

– Düz deyirsiniz, ət 8 manatdır. Ancaq mənim satdığım isə yay uzunu tövlə şəraitində bəslənən cöngə ətidir. Qiyməti də 9 manatdır.

Nizami həmin müştəriyə qoşulub, hərdənbir narazılıq edən cavan oğlana: – Sən bilirsən, ətlik cöngə necə bəslənilir? Yayın istisində, dağlarda yerləşən təbii biçənəklərdə kərənti çəkir, ot biçir və həmin otu bağ edib dağ cığırları ilə 5-10 kilometr məsafədə daşıyıb qış üçün yem tədarük edirlər. Bu proses 2-3 il davam edir, – deyib onun üzünə baxdı.

– Mən hardan bilim. Mən şəhərdə böyümüşəm.

Bu zaman cib dəsmalını çıxarıb alnının tərini silmək əvəzinə ayaqqabısını parıldayanadək silən, özündən müştəbeh müştəri: – Ay kişi, bizə nə dəxli var, sən necə bəsləmisən, nə qədər xərc çəkmisən? – dedi.

– Sakitcə dayanıb müştəriləri dinləyən Nizami, görürəm cavansan. Kənd həyatından xəbərsizsən. Onda de görüm Bakıya və ya digər şəhərlərə bilet alıb təyyarə ilə getmisən?

– Bəli.

– Təyyarədə uçmaq üçün "ekonom" bilet almısan, yoxsa "biznes klass"?

– Yox, mən ümumi qaydada satılan bilet alıb getmişəm.

– Bəs ümumi qaydada bilet alıb "biznes klass" bölməsində necə, getmisən?

–Yox ora qoymazlar.

– Niyə?

– Çünki o bölmədə gedənlər az qala ikiqat pul ödəyirlər. Həm də orada əyləşənlərə ümumi qaydada bilet alan sərnişinlərdən fərqli olaraq digər xidmətlər də göstərirlər.

– Ay sağ ol. Bax oğul, mən də bu cöngəyə düz 3 il "biznes klass" xidmətləri göstərib, necə deyərlər" bir ətək xərc çəkmişəm ki, ümumi qiymətə satam? Mənim satdığım ət elə "biznes klass" qiymətlərinə layiqdir. Ona görə də siz ünvanı səhv salmısınız. Ümumi qaydada saxlanılıb satışa çıxarılan 8 manatlıq ət qonşuluqdadır, – deyib sırada dayanan digər müştəriləri yola salmaq istədi.

– Yox, biz ünvanı səhv salmamışıq, ağzımızın dadını da yaxşı bilirik. Sadəcə, biz elə düşünürdük ki, bütün çeşiddə olan ət elə 8 manat olmalıdır. Ancaq indi gördük ki, hər ətin öz qiyməti var. – Buyurun, bizə də ət çəkin, – deyən "narazı müştərilər" ət alıb getdilər.

Beləcə, biz də dağların gülü-çiçəyi ilə bəslənmiş cöngə ətini 9 manata alıb döndük evə. Qoy halallıq olsun, – dedik. Axı kəndli 2-3 il bir cöngəyə qulluq edir, yem alır, yem toplayır, əziyyət çəkir. O, zəhmətsiz gəlir yox, alın təri ilə, zəhməti ilə qazanır bu pulu.

Sonda onu da deyək ki, hər bir məhsul öz adı ilə satılanda, həm satan, həm də alan üçün sərfəli olur, heç kəs heç kəsin haqqına toxunmur. Üstəlik də, halallıq olur.

✍ **Kərəm HƏSƏNOV**

*Naxçıvanın özünəməxsus təbiəti və coğrafi relyefi var. Məsələn, burada yay fəsli quru kontinental iqlimlə müşahidə olunur, qışda isə əksinə, sərt şaxtalı hava hakimdir. Muxtar respublikanın relyefində dağlıq və dağlıq-düzənlik ərazilər daha çoxdur. Ölkəmizin digər dağlıq ərazilərindən fərqli olaraq, Naxçıvan dağlarının bitki örtüyü azdır. Ancaq bunun özündə də bir hikmət, Uca Yaradanın saysız-hesabsız möcüzələri gizlənir. Və hələlik insanoğluna bu möcüzələrin müəyyən bir qismi məlumdur. Çünki ərazicə kiçik olan bu qədim diyarın köksündə vüqarla dayanmış dağların alt qatlarında nələr yoxdur ki? Onlarla növdə tikinti materialları üçün xammal yataqlarından tutmuş duz laylarınadək, müxtəlif metal yataqlarından tutmuş mineral tərkibli bulaqlaradək bəşər övladının istifadəsinə verilmiş saysız-hesabsız zənginliklər.*

# Naxçıvanın şəfa ocaqları

## *Sağlamlıq üçün bura üz tutanları ana təbiət özü müalicə edir*

Lakin unutmayaq ki, həyatda ən böyük zənginlik sağlamlıqdır. Sağlamlıq da insanın yaranışı kimi torpaqdan gəlir. Çünki elm də sübut edib ki, torpağın birbaşa insana bəxş etdiyi istənilən məhsul (su, qida) sağlam yaşamağın təməlini təşkil edir. Naxçıvanda yetişən meyvə-tərəvəzin özünəməxsus dadı və tamı, min dərdin min bir dərmanını əvəz edən saysız-hesabsız bitki növləri, təmiz hava və saf su bu torpağı möcüzələr diyarı adlandırmağa imkan verir. Ancaq Naxçıvan torpağı sağlam həyat üçün təkcə bununla kifayətlənməyib, həm də xeyli sayda müalicə mənbələrini insanlığın ixtiyarına verib. Hansı ki müasir həyatımızda bizə "yolyoldaşı" olmuş xəstəliklərin müalicəsində bu mənbələrə daha çox ehtiyac duyuruq. Belə müalicə mənbələrindən biri də adı Naxçıvanla qoşa çəkilən Duzdağdır.

Təbii ehtiyatları 90 milyon ton olan Duzdağda mənbələrə görə, 6000 il əvvəl – Nuh Peyğəmbərin dövründən duz çıxarılmağa başlanılıb. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb. Həmin ölkələrə buradan duz daşınıb. Etnoqrafik məlumatlara əsasən, Duzdağdan açıq üsulla duz çıxarılması XX əsrin ortalarına qədər mövcud olub. Sənaye üsulu ilə Duzdağdan 1927-ci ildən başlayaraq duz çıxarılıb. Bu dağ təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınıb. 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər



qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Mərkəzin baş həkimi Ruslan Süleymanov deyir ki, yer altındakı duz dağının qalınlığı 8,2 metrə bərabər olan mərkəzdə oksigen və zəngin duz minerallarının yaratdığı hava bir çox xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Burada yaradılmış şərait son illərdə müalicə üçün mərkəzə üz tutanların sayını artırıb. 2016-cı ilin birinci yarısında Duzdağ Fizioterapiya Mərkəzinə "Duzdağ" oteli də daxil olmaqla, 3150 müraciət olub. Müraciət edənlərin 110 nəfərini xarici ölkə vətəndaşları təşkil edib. Burada müalicə alanlar, əsasən, Türkiyə, Rusiya, ABŞ, Qazaxıstan, Moldova, Ukrayna, İran vətəndaşları və ölkəmizin digər regionlarından gələnlər olub.

Naxçıvanın digər təbii müalicə ocaqlarından biri də Darıdağ Arsenli Su Müalicəxanasıdır. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən bu müalicəxanada müalicə, adından da göründüyü kimi, su ilə aparılır. Müalicəxananın direktoru Zəfər Məmmədov bizimlə söhbətində bildirdi ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli



su bir çox xəstəliklərin dərmanıdır. Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə aparılıb. İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su ona müalicəvi təsir göstərməklə onun iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilibdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə olunub. Bu tarixi faktı da qeyd etmək yerinə düşər ki, 1930-cu illərdən malyariyalı xəstələr bu şəfalı sudan istifadə ediblər. Hər il bu müalicəxanaya da xarici ölkələrdən, o cümlədən Azərbaycanın müxtəlif bölgələrindən xeyli sayda xəstələr müraciət edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası təbii və mineral suyu olan bulaqlarına görə də dünyada diqqəti cəlb edən bölgələrdəndir. Bu səbəbdən də Naxçıvanı çox vaxt "Mineral suların təbii muzeyi" adlandırırlar. Muxtar respublikanın 5,5 min kvadratkilometrlik sahəsində 250-dən artıq mineral su mənbəyi vardır. Naxçıvanda təbii suların kimyəvi tərkibinin öyrənilməsinə 1843-cü ildən başlanılsa da, bu sahədə planlı kəşfiyyat işləri XX yüzillikdə aparılıb. Aydın olub ki, Naxçıvanda mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların 98 faizi karbon qazlı olub, hidrokarbonat tipli sulara aid edilir.

*Ümumilikdə, Azərbaycanın mineral su ehtiyatlarının 60 faizi Naxçıvan Muxtar Respublikasının ərazisindədir və bu suların hər biri müxtəlif növ xəstəliklərin müalicəsində effektli vasitələrdən sayılır. Muxtar respublika kifayət qədər müalicəvi mənbələrə malikdir ki, bu da regionda turizmin inkişafına öz təsirini göstərir. Dolayısı ilə müalicəvi turizmin inkişafında Naxçıvan ən perspektivli istiqamətlərdən biridir. Çünki sağlamlıq üçün bura üz tutanları, necə deyərlər, ana təbiət özü müalicə edir.*

✍ **Səbuhi HƏSƏNOV**

---

# Bir sinfin bütün məzunları tələbə adını qazanıb

## *5 nəfər isə 500-700 intervalında bal toplayıb*

***Hər bağban üçün böyüdüb boya-başa çatdırdığı fidanların bar verməsi nə qədər sevinc doğurucu və fərəh vericidirsə, hər bir şagirdin ali məktəblərə qəbul imtahanlarında yaxşı nəticələr göstərməsi də o şagirdə biliklərin sirlərini öyrədən müəllimlər üçün qürur qaynağı, başucalığıdır. Bu baxımdan ali məktəblərə qəbul imtahanları onbirillik müəllim əməyinin sınağı, kulminasiya nöqtəsidir.***

Hər il olduğu kimi, bu il də hər doğma diyarımızda çox sayda müəllimə bu hissləri yaşamaq nəsib olub. Məktəblərimiz arasında bir məktəb var ki, onun builki buraxılış sinfi olan XI"b" sinfinin uğurları, zəhmətkeş müəllimləri haqda söz açmağa dəyər. Çünki bu ilin qəbul imtahanlarında həmin sinifdən bircə nəfər də olsun, kənarda qalmayıb. 20 məzunun hamısı tələbə adını qazanıb. Bir nəfər 675 bal olmaqla, 5 nəfər 500-700 intervalında bal toplayıb. Söhbət Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdən gedir.

Bu günlərdə həmin sinfin rəhbəri Sara Əzimovanın şagirdlərinin qazandığı nailiyyət səbəbindən sevincinin həddi-hüdudu yoxdur. Bunu onun hər bir şagirdi haqda böyük həvəslə söhbət açmasından, hər bir şagirdin valideynlərinə zəng edib onları sevinclə təbrik etməsindən də hiss etmək, görmək mümkündür. Elə biz də onun və müəllim yoldaşlarının sevincinə şərik olub, təəssüratlarını öyrənmək istədik:

– Bizim sinfin bütün şagirdlərinin tələbə adını qazanması, bir neçəsinin yüksək nəticələr göstərməsi nəinki mənim və müəllim yoldaşlarımın, ümumilikdə, muxtar respublikada təhsilimizin inkişafı, yüksək intellektə malik gənclərin yetişməsi üçün əlindən gələni əsirgəməyən, yaxşı nəticələr qazanmaq üçün var-qüvvələrini səfərbər edən təhsil işçilərinin uğurudur. Son illərdə yaxşı şəraitdə dərs deməyimiz, uşaqlara bilikləri ən yüksək səviyyədə tədris edə bilməyimiz üçün nə lazımdırsa, edilib. Bunun qarşılığında hər bir müəllim dövlət və cəmiyyət qarşısında öz vəzifəsini yaxşı başa düşərək şagirdlərinin tələbə adını qazanması, vətənin parlaq gələcəyi və xalqın rifahı naminə çalışmaları üçün əlindən gələni əsirgəmir. Və nəhayət, necə deyərlər, əkdiyimiz fidanlar ilk şirin barını verib, bütün məzunlarımız tələbə adını qazanıb. Ancaq biz bu nailiyyətlərlə kifayətlənmək fikrində deyilik. Məzunlardan bir neçəsi daha yüksək nəticələr qazanıb. Nəriman Süleymanov 675, Aysun Hacızadə 581, Aygün Hümbətova 548, Araz Əliyev 539, Nigar Təhməzova 510 bal toplayıb. Çalışacağıq ki, gələcəkdə bütün şagirdlərimiz böyük uğurlara nail olsunlar, Prezident təqaüdünə layiq görülsünlər. Muxtar respublika təhsilinin keçdiyi yola qısa bir nəzər salsaq, görərik ki, 15-20 il bundan öncə hər bir məktəb heç olmasa bir neçə buraxılış sinfindən bir neçə nəfərin ali məktəblərə qəbul olunması üçün çalışırdı. İndi hər bir müəllimin uğur qazanması üçün yüksək şərait yaradılıb. Belə olan halda yaxşı çalışmamaq, şagirdlərin hər biri ilə fərdi qaydada məşğul olmamaq ən azından vicdansızlıq və məsuliyyətsizlik olar.

Bütöv bir sinfin ağır bir yükünü qəbul imtahanlarına qədər çiyinlərində daşıyan riyaziyyat müəllimi Xatın Məmmədova, kimya müəllimi Fatma Allahverdiyeva, biologiya müəllimi Kəmalə Həsənova, ingilis dili müəllimi Afər İbrahimova, tarix müəllimi Səkinə Allahverdiyeva və başqaları da bu günlərdə keçirdikləri sevinc hisslərini bizimlə bölüşdülər, ürək sözlərini dedilər. Onlarla söhbətimizdən belə qənaətə gəldik ki, müəllimlərin hər biri çəkdikləri zəhmətin qarşılığının yüksək dərəcədə olmasından böyük qürur hissi keçirir, gələn il də eyni nəticəni göstərməyə hazırlaşırlar.

Məktəbin direktoru Əli Novruzov isə bildirdi ki, təhsil ocağında müasir təlim metodlarından, elektron lövhələrdən istifadəyə geniş yer verilməsinin belə böyük uğurun qazanılmasında mühüm rolu olub. Müəllimlər belə siniflərdə böyük həvəslə dərs keçərək uşaqları imtahanlara hazırlaşdırıblar. Burada müəllim seçimi də xüsusi diqqətlə aparılıb, hər bir müəllim maksimum şəkildə biliklərin sirlərini uşaqlara öyrətməyə səy göstərib.

Valideynlərdən Vüqar Salmanlı, Vüsalə Kazımbəyli məktəbdə yaradılan müasir şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirərək qeyd etdilər ki, övladlarının gələcəyini əmin əllərə təslim etmələrinin bəhrəsini görməkdən yaxşı nə ola bilər?

Sinif rəhbəri Sara Əzimova deyir ki, o və müəllim yoldaşları bu uğurla kifayətlənməyəcək, qarşıdan gələn tədris ilində daha yaxşı nəticələr qazanmaq üçün səy göstərəcəklər.

*Biz isə öz növbəmizdə, bu fədakar müəllim heyətinə yeni-yeni uğurlar arzulayır, nailiyyətlərin davamını diləyirik.*

✍ **Səbuhi HÜSEYNOV**

---

*Hər bir ölkənin tərəqqisi elm və təhsilin inkişafından asılıdır. Çünki ixtisaslı və peşəkar kadrlar bütün sahələrdə inkişafın əsas hərəkətverici qüvvəsi hesab olunurlar. Buna isə ümumtəhsil məktəblərində yüksək təhsil verməklə nail olmaq mümkündür. Ümummilli lider Heydər Əliyev təhsilə xüsusi əhəmiyyət verərək deyirdi:* ***"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir".***

# Qəbul imtahanlarında qazanılan nəticələr bu il daha yüksək olub

Muxtar respublikamızda dönmədən həyata keçirilən Heydər Əliyev ideyaları təhsil sektorunun davamlı inkişafında başlıca stimuldur. Bunun da nəticəsində muxtar respublikada təhsilin məzmunu yenilənib, keyfiyyəti isə xeyli yüksəlib. Təlim-tərbiyə müəssisələrinin maddi-texniki bazasının yenidən qurulması diqqət mərkəzində saxlanılıb, məktəblərimiz ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Belə ki, ümumtəhsil məktəblərində 623 elektron lövhə quraşdırılıb və təhsil müəssisələrinə 3725 dəst kompüter verilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, təhsil müəssisələrinə göstərilən qayğı bu il də ali və orta ixtisas məktəblərinə qəbulda öz müsbət nəticələrini göstərib. Belə ki, 2015-2016-cı tədris ilində ümumtəhsil məktəblərini bitirən 3138 məzunun 2469 nəfəri ali məktəblərə sənəd verib. Bu da məktəbi bitirənlərin 78,68 faizini təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2674 nəfər olub. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 80 faizi deməkdir.

Ali məktəblərə qəbul imtahanlarında 121 ümumtəhsil məktəbindən məzun olmuş 322 nəfər 500-700 intervalında bal toplayıb. Onların 105 nəfəri 600-700 intervalında nəticə göstərib. Qəbul imtahanlarında yüksək bal toplayanların 185 nəfərini (yəni 57,5 faizi) qızlar təşkil edib.

Bu gün muxtar respublikamızın dağ kəndlərində yaradılmış təhsil mühitinin yüksək olmasının nəticəsidir ki, 500-700 intervalında bal toplayaraq tələbə adını qazananlardan 193 nəfəri kəndlərdə fəaliyyət göstərən 92 ümumtəhsil məktəbinin məzunudur.

Ümumtəhsil məktəblərinə kompüter və elektron lövhələrin verilməsi şagirdlərimizin dəqiq elmlərə olan marağını artırıb, nəticədə, cari ilin məzunlarından 115 nəfəri qəbul imtahanlarında yüksək nəticələrə nail olub.

Məlumatda o da bildirilir ki, 2015-2016-cı tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran 27 məzun qızıl və gümüş medallara layiq görülüb. Onlara qazandıqları uğurlara görə bu il ilk dəfə olaraq Təhsil Nazirliyi tərəfindən mərkəzləşmiş formada medalların təqdimat mərasimi keçirilib və adları təhsil aldıqları məktəblərin "Şərəf kitabı"na yazılıb. Həmin məzunlar onlara göstərilən etimadı doğruldub. Belə ki, qəbul imtahanlarında 12 nəfəri 600-650, 15 nəfəri isə 650-700 arası bal toplayıb.

**Xəbərlər şöbəsi**

## Yüksək zövqlə yaradılan parklar şəhər sakinlərinin, eləcə də qonaqların ən çox sevdikləri məkanlardır

***Naxçıvan şəhəri rəngarəng, xoşətirli gül-çiçəklər və cürbəcür dekorativ ağaclarla dolu olan bir ünvana çevrilib. Meydanlardan, parklardan, xiyabanlardan, bağ-bağçalardan çiçəklərin rayihəsi gəlir, al-əlvan güllərin yaratdığı xoş mənzərələrdən insanın ruhu dincəlir, bu mənzərələr baxanların könlünü oxşayır. Belə məkanlardan birindəyəm.***

Şəhərimizdəki Heydər Əliyev Muzeyinin qarşısında. Büllur kimi bərq vuran fəvvarənin yanında nəvəsi ilə istirahət edən Adilə Əlimərdanova ilə həmsöhbət oluram. Onun dediklərindən:

– Lap uşaq vaxtlarımdan gül-çiçəyi çox sevmişəm, bağ-bağata böyük marağım olub. Tale elə gətirib ki, çoxuşaqlı ailənin övladı olduğum üçün atam qardaşlarımı evlə təmin etmək məqsədilə böyük həyətimizi satıb, eyni binada üç mənzil alıb. Beləcə, öz gözəl bağ-bağçamızdan, rəngarəng güllərdən ayrı düşmüşəm. Elə ailə qurduqdan sonra da bağ-bağçalı həyət evi mənə qismət olmayıb. O vaxt şəhərimiz də, necə deyərlər, gül-çiçək baxımdan kasad idi. Bir-iki yerdə gülkarlıq olsa da, baxımsız olduqlarından, qulluq görmədiklərindən elə bahar aylarında solur, baxanların ürəyini ağrıdırdı. Həmişə bu gülkarlıqların yanından keçəndə onları sulamaq, diblərini yumşaltmaq könlümdən keçirdi. Ürəyimdə bu güllərin qulluğunda durmalı olanları qınayırdım. Nə isə...

Şəhərimizdəki parklarda istirahət etdiyim zaman xüsusi bir dinclik, rahatlıq tapıram, qızım, – deyə söhbətinə davam edir: – Dövlət tərəfindən xüsusi qayğı göstərilən belə yerləri mən öz həyatım hesab edirəm. Tez-tez nəvələrimi götürüb belə yerlərə üz tuturam. Nəvələrim də mənim kimi gül-çiçəkləri sevir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaxınlığındakı fəvvarənin önündə şəkil çəkdirən gənclər Naxçıvanda təhsil aldıqlarından, gözəl bir şəhərdə oxuduqlarını çox məmnun olduqlarını dilə gətirdilər. Türkiyədən Naxçıvana təhsil almaq üçün gəlmiş Elif Sultan Karasu və onun rəfiqəsi Yağmur Akyıldırım, xüsusən yaz-yay aylarında Naxçıvan şəhərinin müxtəlif yerlərində gəzməkdən, asudə vaxtlarını gözəl ünvanlarda keçirməkdən böyük zövq aldıqlarını bildirdilər. Elif Sultan Karasu dedi ki, uşaqlıqdan onda ədəbiyyata, kiçikhəcmli hekayələr yazmağa böyük həvəs var.







Naxçıvan şəhəri, onun bənzərsiz mənzərələri, gur fəvvarəli meydanları, mehriban, qonaqpərvər insanları haqda hekayə yazır. Hekayənin adını isə şəhəri bəzəyən xoşətirli gül-çiçəyə həsr edib: "Al qızılgüllər şəhəri". Bu hekayədə insanların öz şəhərlərinin, onun gözəl ünvanlarının qədrini-qiymətini yaxşı bilməsindən, öz şəhərləri ilə qürur duymalarından, gül-çiçəklərə necə qulluq göstərmələrindən, şəhərin gündən-günə gözəlləşməsində əməyi olan insanlara şəhər əhalisi tərəfindən necə hörmət bəslənməsindən söhbət açılır.

Həmsöhbətimin rəfiqəsi Yağmur Akyıldırım isə dedi ki, buraya gəlməzdən öncə Naxçıvan haqda yalnız ilkin məlumatları olub. Naxçıvan onların düşüncələrində mərkəzdən uzaq əyalət şəhəri kimi canlanıb. Ancaq buraya gəldikdən sonra qədim diyarın nəinki bu ölkənin, hətta regionun mədəniyyət mərkəzi, Naxçıvanın gözəl və abad bir şəhər olduğunu gördülər. Naxçıvan şəhərinin axşamlarının isə yay aylarında bir ayrı füsunkarlığı var. Hər yerdə rəngbərəng işıqlar yanır, parklar al-əlvan rənglərə boyanır. İnsanlar rahat bir şəkildə parklara çıxır, istirahət edirlər. Fəvvarələrdən düşən damlalar ətrafa xoş bir sərinlik gətirir. Hər şəhərdə insanların axşam saatlarında belə əmin-amanlıqla gəzdiyini görmək mümkün deyil. Axşam saatları əksər şəhərlərdə insana sakitlik, hüzur yox, təhlükə gətirir. İnsanlar bu saatlarda şəhərlərin mərkəzi küçələrinə çıxmaqdan ehtiyat edirlər. Ancaq burada belə deyil. Axşam, eləcə də gecə saatlarında heç bir müdaxilə ilə qarşılaşmadan istənilən ünvana getmək olar. Elə təkcə bu amil Naxçıvan şəhərini dünyanın ən təhlükəsiz şəhərləri sırasına çıxarır. Mənə xoş gələn digər bir məqam isə küçə və xiyabanlarda rəngbərəng güllərin olmasıdır. Maraqlı burasıdır ki, bu gül kollarının hər birinə ayrı-ayrılıqda xüsusi qayğı ilə qulluq göstərilir. Bu, Naxçıvan əhalisinin ətraf mühitin qorunmasına nə qədər önəm verdiyinin göstəricisidir. Həmsöhbətim əyilib güllərdən birini qoxulayır və söhbətinə davam edir:

– Artıq bir neçə ildir ki, Naxçıvanda təhsil alırıq. Rəfiqəmlə tez-tez şəhərin müxtəlif parklarını gəzirik. Hər yer çox gözəldir. Ancaq ən çox vaxt keçirdiyimiz məkanlar Əcəmi seyrəngahı, Qızlar bulağı, görkəmli dövlət xadimi Heydər Əliyevin abidəsinin və Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasının ətrafıdır. Ötən günlərdə təsadüfən şahidi olduğum bir hadisə məni çox təsirləndirdi. Belə ki, ulu öndər Heydər Əliyevin abidəsi yanında gəzintiyə çıxmış nənə və gülləri qoparmaq istəyən bir uşağın söhbətinə qulaq şahidi oldum. O uşaq yaxınlıqdakı yaşıllıq zolağındakı bir koldan gül qoparmaq istərkən nənənin ona dediyi bu sözləri eşitdim: "Bütün bu güllər bizim üçün əkilib, şəhərimiz gözəlləşib. Onları qorumalıyıq".

Əcəmi seyrəngahında bütün oturacaqların dolu olduğunu gördük. Burada yerli sakinlərlə yanaşı, respublikanın başqa bölgələrindən gəlmiş qonaqlarla da rastlaşdıq. Onlardan biri, Zöhrə Məmmədova ilə həmsöhbət olduq:

– Biz oğlumla birlikdə müalicə üçün Sumqayıt şəhərindən Duzdağ Fizioterapiya Mərkəzinə gəlmişik. Hər gün Duzdağdan qayıtdıqdan sonra günbatana yaxın oğlum Yusiflə buraya gəlirik. Demək olar ki, Naxçıvanda olan bütün parklara getmişik, ancaq bura daha çox xoşumuza gəlir. Burada müasirliklə tarixilik vəhdət təşkil edir. Bir tərəfdə müasir "Gənclik" Mərkəzi, bir tərəfdə möhtəşəm memarlıq nümunəsi olan Möminə xatın türbəsi. Buraya dəfələrlə gəlməyimizə baxmayaraq, oğlum gələn kimi qaçıb bu memarlıq nümunəsinin üzərində həkk olunan ornamentləri incələyir, sanki yeni nəsə axtarır.

*Digər bir istirahət məkanı – Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı da al- əlvan gül-çiçək sarıdan o birilərdən heç nə ilə fərqlənmir. Axşamüstü burada istirahət edən Məmmədovlar ailəsinin üzvü Şəfahət Məmmədova bildirdi ki, ailəliklə tez-tez buraya gəlirlər. Uşaqlar müxtəlif əyləncə və oyunlarla başlarını qatarkən onlar oturacaqlarda oturub, təmiz havanı, ətrafı bəzəyən çiçəklərin bihuşedici ətrini ciyərlərinə çəkirlər. Burada olan yaşıllıq, al-əlvan çiçəklər uşaqlardan çox böyüklərə zövq verir. O, bizim istirahətimizə zəmin yaradan, belə məkanların yaradılmasında əməyi olan hər kəsə minnətdarlıq etməyi də unutmadı, hər kəsi belə gözəlliyi qorumağa səslədi.*

**Fatma BABAYEVA**

## Zəngin təbiət, coğrafi şərait Naxçıvanda özünəməxsus mətbəx formalaşdırıb

***Hələ qədim zamanlardan xalqımız sahib olduğu zəngin süfrə mədəniyyəti ilə tanınıb. Əsrlərboyu süfrəmiz yurdumuza gələn qonaqlarda böyük maraq doğurub. Əminliklə demək olar ki, dünyanın əksər ölkələrində mətbəx, süfrə, kulinariya anlayışları tam formalaşmamışkən Azərbaycan mətbəxi günü-gündən yeni, ləzzətli, üstəlik, çoxsaylı yemək növləri ilə tanınıb. Azərbaycan kulinariyasında bütün bölgələrimizin özünəməxsus yeməkləri, bir-birindən ləzzətli naz-nemətləri xüsusi yer tutur. Bölgələrimiz iqlim şəraitinə, flora və faunasına, coğrafi mövqeyinə görə fərqləndiklərindən mətbəxlərin arasında olan müxtəlifliklər də təbiidir.***

Qədim diyarımız Naxçıvan da mətbəxinin zənginliyinə, özünəməxsusluğuna, heyrətamiz dadına görə ad-san qazanıb. Bu mətbəxdə yer alan saysız-hesabsız yeməkləri, şirniyyatları, çərəzləri, mürəbbələri, şərbətləri sadalamaqla bitməz. Elə təkcə çörəyin muxtar respublikada xeyli çeşidi var: nəfis təndir lavaşı, qalın, dəstana, kömbə və sair. Hər bir naz-nemətin ən vacib komponenti olan duz isə elə Naxçıvanın özündədir. Özü də bu duzun dad-tamı bambaşqadır. Elə buna görədir ki, Naxçıvan duzunun şöhrəti nəinki ölkəmizdə, onun hüdudlarından kənarda da yayılıb.

Muxtar respublikada bişirilən ləzzətli yeməklər ayrıca bir mövzudur. Daha dəqiq desək, bunlar barədə bir neçə mövzuda söhbət açmaq olar. Bu torpaqda bitən hər şey sanki xüsusidir, təkrarsızdır. Meyvə, tərəvəz, göy-göyərti hər yerdə bitsə də, Naxçıvan torpağında yetişdirilən məhsullar digərlərindən seçilir. Həmin məhsullardan hazırlanan yeməklər də, təbiidir ki, heç bir bölgədə bu qədər ləzzətli olmur. Naxçıvanda hər mövsümə uyğun olaraq fərqli-fərqli yeməklər bişirilir. Yaz aylarında muxtar respublikada göyərtidən (pencərdən) hazırlanan yeməklər çox dadlı olur. Göyərti qutabı, kətəsi, küküsü, ispanaq qovurması və başqa "yaşıl" yeməklərin ləzzətini söz ilə ifadə etmək çətindir. Hələ üzərinə sarımsaqlı qatıq əlavə etdikdə bu yeməklərin dadı ayrı cür ləzzət verir.

Süd və süd məhsullarından hazırlanan nemətlər də süfrələrdə yaz aylarında daha çox görünməyə başlayır: südaşı, bulama, qatıqaşı, qatıqlama, dovğa, ayranaşı və qurutaşının adı bütün naxçıvanlılara yaxşı tanışdır. Bu nemətlər orqanizmə çox faydalı olub bəziləri sərinləşdirici kimi istifadə edilir.

Naxçıvan mətbəxində ət məhsullarından hazırlanmış yeməklər xüsusi vurğulanmalıdır. Həmin yeməklərin say-hesabı o qədərdir ki, bu haqda xeyli danışmaq, yazmaq olar. İlin bütün aylarında, fəsillərində süfrələrdə görünən ət yeməkləri – kabablar Naxçıvan mətbəxində çox böyük yer tutur. Muxtar respublika ərazisinin faunasının zəngin olması və burada heyvandarlığın inkişaf etdirilməsi həmin yeməklərin hazırlanmasına şərait yaradıb. Əvvəlcə bütün dövrlərin imtina edilməz sevimli ət yeməyi olan kababdan danışaq. Toyları, bayramları, qonaqlıqları onsuz təsəvvür etmək, yəqin ki, qeyri-mümkündür. Naxçıvanda kababın lüləkabab, tikə kabab, xan kababı, doldurma (bağırsaq kababı), tavakababı, saciçi, quyruq kababı və sair növləri bişirilir. Kabab hər zaman bu yurdun adəti yeməklərindən hesab olunub və bu gün də elədir.



Onu da qeyd etməliyik ki, Naxçıvan göl və çayların bolluğuna görə də əlverişli mövqedədir, bu sularda müxtəlif növ balıqlar yaşayır. Elə buna görə də Naxçıvan mətbəxində balıq yeməklərinin öz yeri var: balıq kababları, qızartmaları, balıq basdırması və sair.

Naxçıvan mətbəxinin qış süfrəsi isə özgə bir aləmdir. Qış aylarının muxtar respublikada sərt keçməsi burada çoxsaylı qış yeməklərinin yaranmasına səbəb olub. Bu fəsildə heç bir naxçıvanlı ailəsinin süfrəsini əriştəaşı, umacaşı, qovurmalı əriştə, xəşil, quymaq, qaşıqaşı, turşulu aş, küftəli əriştəaşı kimi yeməklərsiz təsəvvür etmək olmaz.

Bir qədər də Naxçıvanın zəngin şirniyyatlarından söhbət açaq. Bilirik ki, ölkəmizin hər yerində bu yurdun şirniyyatları – Ordubad paxlavası və qayğanağı, cəvizli Ordubad dürməyi, müxtəlif kətələr, bükmələr, küncüd, fındıq halvası, quymaq, zirətov, sucuq və başqaları çox məşhurdur. Muxtar respublikanın bütün bölgələrində müxtəlif meyvə ağaclarının – cəvizin, fındığın, badamın çoxluğu şirniyyat çeşidlərinə də öz təsirini göstərib. Təsadüfi deyil ki, Naxçıvan mətbəxinin şirnilərində onlardan çox geniş istifadə olunur.

Bu yazımızda oxucuların nəzərinə Naxçıvan mətbəxinin çox cüzi və az bir qismini çatdırdıq. Bu mətbəxin zənginliyi jurnallara, kitablara sığmır. Çalışdıq ki, ən gözəl milli dəyərlərimizdən biri hesab olunan milli mətbəximiz, konkret olaraq, Naxçıvan mətbəxi haqqında sizə bir qədər məlumat verək. Belə zəngin mətbəx Naxçıvanın təbiəti, ruzili torpağı, flora və faunası, tərtəmiz havası, suyu, əlverişli coğrafi mövqeyi ilə bağlıdır. Naxçıvanlılar da xoşbəxtdirlər ki, belə torpaqda doğulublar, onun havasından udub dumduru suyundan içiblər, ləzzətli yeməklərinin, naz-nemətinin də dadına sevə-sevə baxıblar və bu gün də həmin ləzzəti bu torpaqdan başqa heç yerdə hiss edə bilməzlər. Ona görə də milli mətbəximiz qorunmalı, dadlı yeməkləri yad mətbəxlərdə yox, elə məhz öz doğma torpağımızın ruzi-bərəkətində, zəngin süfrəsində axtarmalıyıq...

**Telli MUSTAFAYEVA**
*Naxçıvan Dövlət Universitetinin*
*Jurnalistika ixtisası üzrə*
*IV kurs tələbəsi*

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1050. Sifariş № 616**